

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

30 sentyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 37 (3550)


# QƏLƏBƏ İLƏ BİTƏN TARİXİ MİSSİYA

## *Şəhidlərin əziz xatirəsinə ehtiram əlaməti olaraq yürüş keçirilib*





Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində yürüş keçirilib.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından ibarət plakatlarla yürüş edərək xalqın birliyinin daimi və sarsılmaz olduğunu, Vətənə sevgi, şəhidlərimizə ehtiramın əbədiliyini bir daha nümayiş etdiriblər.

Neftçilər prospektindən başlayan yürüş dövlətimizin başçısı tərəfindən bu gün təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər muzeyinədək davam edib. Yürüşdə 3 min nəfərdən çox kursant və hərbi qulluqçu iştirak edib.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı 2907 nəfər şəhid olub, 7 nəfər itkin düşüb, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilib.

Anım Günündə Vətən müharibəsində şəhid olan əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilib.

Şəhidlərimizin əziz xatirəsi Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - Heydər məscidində, Təzəpir məscidində, “Jen Mironosits” pravoslav kafedral kilsəsində, Bakının Avropa Aşkenazi Yəhudi Sinaqoqunda, Ağdam Cümə məscidində, Kəlbəcərdəki Xudavəng məbədində, Laçındakı Ağoğlan məbədində, Şuşadakı Yuxarı Gövhər Ağa məscidində və digər məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiramla yad edilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunub, dini ayinlər icra olunub, bölgəmizdə və bütövlükdə dünyada əbədi sülhün bərqərar olması üçün dualar oxunub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlqoyma mərasimində iştirak ediblər.

Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, toplanacaq eksponatlar ərazilərimizin azadlığı uğrunda mübarizə aparan əsgər və zabitlərin igidliyini, xalqın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

Təməlqoyma mərasimindən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dənizkənarı bulvar ərazisinə gələrək qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərdən fasiləsiz fit səsi verilib, yaylım atəşi açılıb.

Daha sonra dövlətimizin başçısı və birinci xanım Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Ulu öndərin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.

# ALİ BAŞ KOMANDAN XALQA MÜRACİƏT EDİB

Müzəffər Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciət edib.

Düz bir il bundan əvvəl Ermənistanın Azərbaycana qarşı hərbi təxribat törədərək döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmasını, bunun nəticəsində mülki şəxslərin, hərbçilərin həlak olmasını deyən dövlətimizin başçısı onun əmri ilə Azərbaycan Ordusunun bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatına başlamasını və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam Qələbə qazanmasını bildirib. Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsinin qəhrəmanlarının şərəfinə Bakıda şəhərin ən gözəl yerində möhtəşəm abidənin - Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlinin qoyulacağını da diqqətə çatdırıb.

Düşməni torpaqlarımızdan qovaraq tarixi ədaləti, beynəlxalq hüququ, milli ləyaqətimizi bərpa etdiyimizi qeyd edən Ali Baş Komandan bu gün Azərbaycan xalqının müzəffər xalq kimi, qalib dövlət kimi yaşadığını, bundan sonra da müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağını vurğulayıb.

Ölkəmizin rəhbəri müraciətində Ermənistanın döyüş meydanında məğlub olarkən yenə ən çirkin əməllərə əl atdığını, mülki şəxslərə qarşı hərbi təxribat törətdiyini, yüzdən çox mülki şəxsin erməni faşizminin qurbanı olduğunu, şəhər və kəndlərimizi müntəzəm olaraq qadağan olunmuş silahlardan - ağ fosforlu bombalardan, ballistik raketlərdən atəşə tutduğunu diqqətə çatdırıb.

Prezident İlham Əliyev Anım Günündə 44 gün ərzində bizə ən böyük dəstək verən qardaş Türkiyəyə də dərin təşəkkürünü bildirib. “Qardaş Türkiyə və qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, Azərbaycana öz dəstəyini göstərdilər. Türkiyə rəhbərliyi və əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən verilən açıqlamalar bizə çox böyük siyasi dəstək oldu, bizə əlavə güc verdi və biz bunu heç vaxt unutmayacağıq. 44 günlük Vətən müharibəsi bütün dünyaya Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi”.

Prezident İlham Əliyev müraciətini Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlayıb: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

# DİN NÜMAYƏNDƏLƏRİ FƏXRİ XİYABANDA OLUBLAR



Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Nazirliyin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları Fəxri xiyabana gələrək müasir, müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.

# QƏLƏBƏ ÜÇÜN DÖYÜŞDÜLƏR

Sentyabrın 28-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov, Nazirliyin rəhbər vəzifəli digər əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları 2-ci Fəxri xiyabana gələrək 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri qoyublar.





# VƏTƏNİ BÜTÖVLÜYÜNƏ QOVUŞDURANLAR

## *Paytaxtda və yerlərdə şəhidlərimizin əziz xatirəsi anılıb*





27 sentyabr Azərbaycan Respublikasında Anım Günü ilə əlaqədar Daxili İşlər Nazirliyinin əməkdaşları və hərbi qulluqçuları Bakının Suraxanı rayonu ərazisindəki yaşıllıq massivində növbəti ağacəkmə kampaniyası keçiriblər.

Tədbirdə **daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev,** Nazirliyin aidiyyəti baş idarə,



idarə və xidmətlərinin rəisləri, digər vəzifəli şəxslər iştirak ediblər.

Əvvəlcə polis əməkdaşları və hərbi qulluqçular boş qalmış ərazidə abadlıq və təmizləmə işləri aparıblar. Sonra yerli iqlimə uyğunlaşdırılmış şam və zeytun tinglərini xüsusi aqrotexniki qaydada qazılmış yerlərdə əkib, onların suvarılmasını təmin ediblər. Tinglərin küləkdən qorunması və normal böyümələri üçün qoruyucu dirəklər basdırılıb.

❖❖❖

***Şamaxı, İsmayıllı və Oğuz rayonlarında*** 27 sentyabr Anım Günü ilə əlaqədar torpaqlarımızın azadlığı uğrunda canından keçən qəhrəmanların xatirəsinə həsr olunan tədbirlər keçirilib.

Tədbirlərdə rayonların rəsmiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, şəhidlərin yaxınları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə rayonlardakı Şəhidlər xiyabanı və xatirə kompleksləri ziyarət olunub, önünə tər çiçəklər düzülüb.

❖❖❖

27 sentyabr Anım Günü ilə əlaqədar **Şəki, Qax, Mingəçevir, Zaqatala, Balakən və Qəbələdə** də rayon rəsmiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, şəhidlərin yaxınları və ictimaiyyət nümayəndələrinin iştirakı ilə torpaqlarımızın azadlığı uğrunda canından keçən qəhrəmanların xatirəsinə həsr olunan tədbirlər keçirilib. Əvvəlcə Şəhidlər xiyabanı və xatirə kompleksləri ziyarət olunub, Vətənimizin bütövlüyü uğrunda canlarını qurban verən mərd mübarizlərin əziz xatirələri dərin ehtiramla yad edilib, ruhlarına dualar oxunub.



Həmçinin, Anım Günü ilə əlaqədar ağacəkmə kampaniyası keçirilib. Aksiyada Daxili Qoşunların hərbi qulluqçuları və polis əməkdaşları da fəal iştirak ediblər. Saat 12:00-da isə nəqliyyat vasitələrinin avtomobil yollarında hərəkət dayandırılıb və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



❖❖❖

Anım Günü ilə əlaqədar ***Saatlı Rayon Polis Şöbəsinin*** əməkdaşları da Şəhidlər xiyabanını ziyarət edərək, Vətən uğrunda canlarından keçənlərin, eləcə də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəhid hərbi qulluqçusu Anar Məmmədovun məzarını ziyarət edib, önünə gül dəstələri düzüblər.

Daha sonra polis əməkdaşları rayon ərazisində ağacəkmə aksiyasında iştirak ediblər. Asayiş keşikçiləri iqlim şəraitinə daha uyğun və dözümlü, dekorativ cəhətdən yaraşıqlı, 135 ədəd müxtəlif ağac əkiblər.

❖❖❖

***Qazaxda da şəhidlərimizin xatirəsi ehtiramla yad edilib, müxtəlif tədbirlər keçirilib.*** Anım Günü ilə əlaqədar Rayon Polis Şöbəsinin əməkdaşları ağaclar əkilməsi aksiyasında iştirak ediblər.

❖❖❖

***Şəmkir Rayon Polis Şöbəsinin*** əməkdaşları Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Şəhidlər xiyabanını ziyarət edib, şəhidlərimizin məzarları önünə gül dəstələri düzüblər.

Sonra həmkarlarımız şəhid polis Arif Məmmədovun ailəsini ziyarət ediblər. Ailə üzvləri göstərilən diqqət və qayğıya görə, asayiş keşikçilərinə öz minnətdarlıqlarını bildiriblər.

Daha sonra Anım Günü ilə əlaqədar olaraq polis əməkdaşları rayon ərazisində ağacəkmə aksiyasında iştirak ediblər. Asayiş keşikçiləri iqlim şəraitinə daha uyğun və dözümlü, dekorativ cəhətdən yaraşıqlı 500 ədəd müxtəlif növ ağac əkiblər.

# Dünən cəbhədə, bu gün asayişin keşiyində

**DİN Baş İctimai Təhlükəsilik İdarəsinə bilavasitə tabe olan Diplomatik Nümayəndəliklərin Mühafizəsi üzrə Əlahiddə Polis Taborunda xidmətə yeni qəbul olunmuş Vətən müharibəsinin iştirakçıları ilə görüş keçirilib.**

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan **Tabor komandirinin xidmət üzrə müavini, polis mayoru Elmar Babayev** bildirib ki, ötən ilin sentyabrında başlayan Vətən müharibəsi qələbəmizlə başa çatdı və biz qalib xalq





kimi XXI əsrə öz imzamızı atdıq: "Ali Baş Komandanın və ordu rəhbərliyinin müharibənin taleyini dəyişən taktiki gedişləri, Azərbaycan oğullarının gözlərini qırpmadan Vətən uğrunda canlarını fəda etmələri düşmən ordusunun məğlubiyyəti ilə nəticələndi. Cəmi 44 gün çəkən Vətən müharibəsindən sonra bütün dünya gördü ki, Azərbaycan Qafqazın ən güclü ordusuna sahibdir və heç bir güc onun qarşısında duruş gətirə bilməz".

Vətən müharibəsində Azərbaycanda yaşayan digər xalqların nümayəndələrinin qəhrəmanlığından bəhs edən **DİN Mətbuat Xidmətinin rəis müavini, "Polis" qəzetinin redaktoru, polis polkovnik-leytenantı Hafiz Təmirov** bunun artıq bir ənənə halını aldığına diqqət çəkib: "Birinci Qarabağ müharibəsində torpaqlarımız uğrunda şəhid olan Yuri Kovalyovun, Albert Aqarunovun, Anatoli Davidoviçin və digərlərinin haqq yolunun davamçılarını biz ikinci Qarabağ savaşında da gördük. Vətən müharibəsi şəhidi Denis Aleksandr oğlu Əliyevin timsalında bir daha şahidi olduq ki, bu torpaqda doğulub boya-başa çatan, milliyyətindən asılı olmayaraq hər bir kəs Azərbaycanı öz qanı, canı kimi sevir".

Azərbaycanın multikultural dəyərlərə sayğı duyulan, tolerantlığa töhfələr verən, dilindən, dinindən asılı olmayaraq hər bir kəsin konstitusion hüquqlarına hörmətlə yanaşılan bir ölkə, ən əsası onların Ana Vətəni olduğunu vurğulayan Vətən müharibəsi iştirakçıları Timoşek Andrey Vasiliyeviç, Şuvayev Vitaliy Aleksandroviç, Elmar Namazov, Emin Zeynalov və Sübhan İsfəndiyarlı bundan sonra da onlara Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən göstərilən etimadı doğruldacaqlarına, layiqli xidmətləri ilə daha böyük nailiyyətlər qazanmaq üçün səylə çalışacaqlarına söz veriblər.

*"Polis"*

# DAXİLİ İŞLƏR NAZİRİ RF DİN-nin POLİS AKADEMİYALARINA EZAM EDİLƏCƏK KURSANTLARI QƏBUL EDİB



**Sentyabrın 29-da daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin Polis akademiyalarında təhsil almaq üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən ezam ediləcək kursantları qəbul edib.**

Qarşıdakı 5 il ərzində Azərbaycan Polisini Rusiyada təmsil edəcək gəncləri təbrik edən nazir, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin çıxış və nitqlərində Azərbaycanın parlaq gələcəyinin məhz yüksək intellektə, müasir dünyagörüşə malik, bacarıqlı, dövlətçiliyə sadiq vətənpərvər gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını bildirib. Ölkə rəhbərliyinin gənclərə hər zaman böyük diqqət və qayğı göstərdiyini xatırladan nazir yüksək mənəviyyatlı, işgüzar və istedadlı gənclərin ölkəmizin ictimai-siyasi həyatında, o cümlədən daxili işlər orqanlarında daha geniş şəkildə təmsil olunmaları, onların dövlət idarəçiliyində xidmətdə irəli çəkilmələri üçün bütün zəruri addımların atıldığını diqqətə çatdırıb.

Sonra DİN-in Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov məlumat verib ki, iki ölkənin Daxili İşlər Nazirlikləri arasındakı razılaşmaya əsasən, bu il Azərbaycan DİN-ə RF DİN-nin Moskva və Rostov şəhərlərindəki Polis Akademiyalarında 15 yer ayrılıb. Həmin yerlərə qəbul üçün elan edilmiş müsabiqəyə 45 namizəd qatılıb. Nazirliyin müvafiq komissiyası tərəfindən müsabiqə tam şəffaflıq şəraitində keçirilərək namizədlərin Dövlət İmtahan Mərkəzində topladığı balları, rus dilində yazı qabiliyyəti və şifahi nitq bacarıqları, eləcə də fiziki hazırlığı əsas götürülərək ən layiqli 15 abituriyent seçilib.

Nazir, general-polkovnik Vilayət Eyvazov həyatlarında ən əlamətdar günlərdən biri – kursant adına layiq görülmələri münasibətilə gəncləri təbrik edib, Vətəndən kənarda alacaqları təhsildə uğurlar arzulayıb. O, gənc əməkdaşlara dövlətimizin, eləcə də Azərbaycan Polisinin adını daim uca tutmağı, eyni zamanda, bilik və təcrübələrini, peşəkar və fiziki hazırlıq səviyyələrini artırmalarını, daim öz üzərlərində işləmələrini, ən müasir informasiya texnologiyalarının sirlərinə yiyələnmələrini tövsiyə edib.

*Zeyni Hüseynov,*
*polis baş leytenantı*

# YAŞATMAQ ÜÇÜN QAN VERDİLƏR

**Vətən Müharibəsində şəhid olanların xatirəsinə ehtiram əlaməti olaraq polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının iştirakı ilə paytaxtda və yerlərdə silsilə tədbirlər keçirilir.**

Ötən günlər ərzində həmkarlarımız yeni tədris ilinin başlanması ilə bağlı onların ailələrinə baş çəkib, şagird övladlarını dərs ləvazimatı, çanta, eləcə də məktəbli forması ilə təmin ediblər.



Daha bir tədbir Nəsimi Rayon Polis İdarəsində baş tutub. Belə ki, sentyabrın 28-də Milli Hematologiya və Transfiziologiya Mərkəzi - Qan Bankı bölməsinin təşkilatçılığı ilə keçirilən qanvermə aksiyasında İdarənin 58 əməkdaşı iştirak edib.



Donorlar əvvəlcə həkim nəzarətindən keçirilib. Onların təzyiqləri ölçülüb, qan qrupları müəyyənləşdirildikdən sonra sağlığı durumu imkan verənlərin aksiyada iştirak etmələrinə icazə verilib. Ümumilikdə 17,4 litr qan tədarük edilib.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi karantin qaydalarının tələbləri nəzərə alınmaqla keçirilib.

*Teymur Əlizadə,*
*polis mayoru*



# DASTANA DÖNƏN BİR İL

## 2020-ci ilin 27 sentyabrı Vətən tarixinin yenidən yazıldığı gündür

**İkinci Vətən müharibəsi Ali Baş Komandanın və Ordunun xalq qarşısında hesabatı idi. 30 il düşmən tapdağında qalan torpaqların və ölkəmizin hər yerinə məcburi köçkün damğası ilə səpələnən soydaşlarımızın fəryadını dindirmək üçün ölümlə üz-üzə gəlmək vaxtının çatdığı demək idi ötən ilin sentyabrı.**

Bir il öncə heysiyyatımızla oynayan, "Gücünüz çatacaqsa, gəlin torpaqlarınızı alın",- deyən köçəryanlara, sarkisyanlara, ohanyanlara və paşinyanlara dərs vermək üçün silahımıza da sarıldıq, qəzəbimizə, nifrətimizə də.

Qələbəyə gedən yolun başlanğıcı səngərdə əsgərinə həyan olan general Polad Həşimovun şəhadəti oldu. Şəhid generalın səngərindən axışdı Azərbaycan xalqı kənd-kənd, şəhər-şəhər küçələrə, meydanlara. Vətən adlı bir canı yaşatmaq üçün 10 milyonluq xalq səs-səsə, nəfəs-nəfəsə, çiyin-çiyinə verdi. 30 il ruhumuzun, qəzəbimizin, hissimizin salındığı "lazım gələrsə" qəfəsini Ali Baş Komandanın hücum əmri darmadağın etdi.

"Sülh və danışıqlar yolu ilə Qarabağ məsələsi həll olunmalıdır",- deyənlərə də dərs verməyin vaxtı çatmışdı. Güllədən sürətli addımlarla doğulduğu torpaqlara yürüyənlərin dilindəki "Allahu əkbər" məqamı Allah qatında olanların ruhuna salam idi.

Qafqazlarda ikinci bir Çanaqqala rüzgarı əsməkdəydi. Şuşa dağlarına canı dişində dırmanan və müqəddəs bayrağı Şuşa qalasına sancmaq üçün güllələrlə göz-gözə gələn bir ordunun əsgəri yıxılsa da, yaralansa da hədəfinə çatmaq naminə "Can verərəm ölümə" deyirdi.

Əsl sahiblərinin isti nəfəsinə, doğma səsinə həsrət qalan torpaqların qoynunda bir yuvaya belə daş olmayan yad daşlarını təmizləməyə gəlmişdi 30 il öncə anasının qucağında qarlı aşırımlarda donan körpələr. "Sirli", "sehrli", adına "dastanlar" qoşulan düşmən ordusunu "Qır atımız, Dür atımız" olan bayraktarlar, haroplar pərən-pərən salmışdı.

"Dəmir yumruq" hayastanı silkələyirdi. Sonun belə olacağını gözləmirdilər. Yerdən, göydən ölüm yağırdı Xocalını oda qalayanların üstünə. Gəncəyə, Bərdəyə, Şuşaya atılan "İsgəndər"lərin də köməklərinə çatmamışdı. Vaxtilə onlara "qorxma-qorxma" deyənlərin özləri də qorxurdular, ürkürdülər. Çünki qarşılarında illər öncə əllərdəki ov tüfəngləri belə yığılan, rəzil duruma salınan Azərbaycan deyildi. Boyu dünyadan görünən, bayrağı ucalarda dalğalanan bir ölkə və "İrəvan da, Zəngəzur da, Göyçə də tarixi Azərbaycan torpaqlarıdır",-deyən bir LİDER, "Müharibə bitməsin, döyüş davam etsin" nidası ilə Xəzərin sahilində Xəzərə dönən bir Xalq vardı düşmənlərin önündə.



Xisləti ölümünə yol açan düşmən havadarlarının köməyi ilə işlənmiş ssenariləri işə salmaq istəsə də işə yaramadı. Çünki ruhuna, iliyinə "Mən Azərbaycanlıyam!" kəlməsi hopmuş hər bir azərbaycanlı-rus, ləzgi, talış, udin, yəhudi, tat, inqloy və daha neçə-neçə Vətən sevdalıları torpağı qorumaq üçün ön sırada idilər. Məsciddə, Kilsədə, Senoqoqda Azərbaycan əsgərinə "Odda yanmaz, suda batmaz" olsun deyə dualar edilirdi.

Hələ bayraqları demirəm, qardaşlaşan, doğmalaşan, dünyanı bölmək istəyənlərin görmək istəmədiyi, ancaq sevdasına mələklərin belə qərq olduğu şanlı bayraqları.





Siyasət meydanında tək qalmadıq, təklənmədik. Özünü televiziya ekranlarının qəhrəmanı sanan, bir çox dövlət başçılarını, öz təbirlərincə desək, "susduran" "jurnalist"lər Müzəffər Ali Baş Komandanın səsləndirdiyi həqiqətlər, gətirdiyi arqumentlər qarşısında gülünc vəziyyətdə qaldılar. Həqiqəti hayqırdı da, pıçıldadı da cənab Prezident!...

Müharibənin ən qızğın çağlarında Xalqa səslənişində onun nə çəkdiyini bir Allah bilirdi, bir də özü. Vətən savaşının başlamasının ildönümü ilə əlaqədar Prezidentin Türkiyəli jurnalistlə müsahibə zamanı kövrəlməsi, yurd yanğısı ilə soydaşlarımızın Vətən nisgilini dilə gətirməsi Xalq, Dövlət naminə döyünən, onu daha da əzəmətli, yenilməz etmək üçün hər bir çətinliyə sinə gərən Dəmir Yumruq və kövrək ürək sahibinin səmimiyyətinin ifadəsi idi.

İtkisiz, Şəhidsiz Qələbə qazanılmır, torpaq işğaldan azad olunmur, bu, hər kəsə bəllidir.

Biz qələbə qazandıq, biz qalibik! Bu qələbəni bizlərə bu gün adi dilimizdə əzbər olan, xatirəsini hörmətlə və ehtiramla yad etdiyimiz şəhidlərimiz, əlini, ayağını, gözünü, bir sözlə, sağlamlığını itirən qazilərimiz bəxş etdilər. 2020-ci ilin sentyabrında Xalqımız Vətən dərsindən beş aldı və düşmənə elə bir dərs verdi ki, bunu tarix kitablarından Zəfər tariximizi oxuyan balalarımız öyrənəcəklər.

...Zəngəzur odumuza isinir. Kəlbəcərdən baxanda Göyçə üzümüzə gülümsəyir. Zaman gələcək ki, bizdən sonra gələnlərin "Biz bir can, bütöv Azərbaycanıq" nidası dünyanın hər yerindən eşidiləcək. O gün mütləq gələcək.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# Şəhidlərimiz ehtiramla anılıb...

## Polis veteranları onların qəhrəmanlığından danışıblar



Anım Günü ilə əlaqədar Bakı Şəhər Baş Polis İdarəsinin Veteranlar Şurasının üzvləri də Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan və İkinci Fəxri xiyabanda torpağa tapşırılan igid oğullarımızın məzarlarını ziyarət ediblər. BŞBPİ Veteranlar Şurasının sədri Emin Məmmədov və digər çıxış edənlər bu tarixi qələbəni əsrin ən böyük hadisəsi adlandırıblar.

Ötən 30 il ərzində daha da azğınlaşan, regionda sülhə, sabitliyə təhlükə olan düşmənin diz çökdürülməsi "Dəmir yumruq"un və xalqımızın iradəsinin təntənəsi kimi diqqətə çatdırılıb.

Sonra veteranlar Vətən müharibəsi şəhidi Azad Hümbətovun ailə üzvləri ilə görüşüb, təkcə onların deyil, xalqımızın belə vətənpərvər oğullarla fəxr etdiyini vurğulayıblar.

# QIZIL MEDAL QAZANDI

**Bugünlərdə Xorvatiyanın paytaxtı Zaqreb şəhərində kişilər və qadınlar arasında keçirilən Cüdo üzrə Grand Prix turniri başa çatıb.**



Yarışda DİN-in İdman Cəmiyyətinin yetirməsi, **Əlahiddə Çevik Polis Alayının polis nəfəri, polis sıravisi Məmmədəli Mehdiyev** 90 kiloqram çəki dərəcəsində qızıl medal qazanıb.

Onun ilk rəqibi Polşa idmançısı Oldak Sebastian olub. Ona ippon xalı ilə qalib gələn idmançımızın növbəti rəqibi avstriyalı Wachid Borchashvili də məğlubiyyətlə barışıb. Rusiya idmançısı Khuse Khalmurzaev də Məmmədəlinin qarşısında tab gətirməyib. Növbəti qələbədən sonra M.Mehdiyev Gürcüstan idmançısı Luka Maisuradze ilə finalda üz-üzə gəlib. Onu da məğlub edən idmançımız Grand Prix turnirinin çempionu olub.

Qeyd edək ki, Məmmədəli Mehdiyevi bu turnirə Cüdo yığma komandanın yeni təyin olunmuş baş məşqçisi, **DİN İdman Cəmiyyətinin Fiziki hazırlıq şöbəsinin baş inspektoru, polis polkovnik-leytenantı Mövlud Mirəliyev** hazırlayıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Biz ONLARI unutmadıq...

*Bugünlərdə "Azərkitab" kitab mərkəzində Vətən müharibəsinin ildönümü ilə əlaqədar "Uşaqlar müharibə ilə yox, sevgi ilə böyümək istəyirlər" devizi altında "Gələcək bizimdir! Qarabağ Azərbaycandır!" adlı sosial layihənin təqdimat mərasimi keçirilib.*

Təqdimat mərasimində şəhidlərimizin anaları, ömür-gün yoldaşları, övladları və Vətən müharibəsi qaziləri Amin Musayev, Tural Ağasiyev, Orxan Hüseynov, Vətən Cəfərli iştirak ediblər.

Tədbirdə torpaqlarımızın azad olunması uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Təşkilatçı, jurnalist Lalə Qəzənfər bildirib ki, layihənin əsas məqsədi Vətən uğrunda canından keçən şəhidlərimizin övladlarının arzu və diləklərini bilmək və xalqa çatdırmaqdır.

**Sahibkar Qadınların İctimai Birliyinin rəhbəri Zenfira Ağayeva, Əməkdar incəsənət xadimi, modelyer-dizayner Fəxriyyə Xələfova və DİN Mətbuat Xidmətinin əməkdaşı, polis baş leytenantı Ruslan Vəliyev** Müzəffər Ordumuzun düşməni diz çökdürdüyünü, qazandığımız qələbənin Vətən tariximizə qızıl hərflərlə yazıldığını vurğulayıblar.



Şəhid övladlarına səslənən həkim, polis övladı Aynurə Muradova onların atalarının adlarının və qəhrəmanlığının dillərdə dastan olacağını, xalqımız tərəfindən heç vaxt unudulmayacağını, igid oğullarımızın Zəfər yolu haqqında cild-cild kitabların yazılacağını, filmlərin çəkiləcəyini deyib.

Sonda 258 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Ayxan İsayev 44 günlük Vətən müharibəsi şəhidlərinə həsr etdiyi "Zəfər çələngi" hədiyyələrini şəhid general Polad Həşimovun, pilot Urfan Vəlizadənin və digərlərinin ailə üzvlərinə təqdim edib.

# Narkotikə görə oğurluq etdi

**Nizami RPİ 24-cü Polis Şöbəsinin əməkdaşları tərəfindən uğurlu əməliyyat həyata keçirilib. Rayonda baş vermiş oğurluq hadisəsinin üstü "isti izlər"lə açılıb.**

Daxil olmuş məlumat əsasında baş əməliyyat müvəkkili, polis mayoru Mətləb Umudov və sahə inspektoru, polis mayoru Gülağa Seyidovdan ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Hadisə yerinə baxış keçirilib, fotoşəkillər çəkilib, protokol tərtib olunub. Qısa zaman kəsiyində oğurluğu törətməkdə şübhəli bilinən Habil Hüseynov saxlanılıb.



"Polis"in suallarını cavablandıran **şöbə rəisi, polis polkovnik-leytenantı Seymur Qarayev** bildirdi ki, hadisəni törətmiş H.Hüseynov küçədə heç kəsin olmamasından istifadə edərək rayon ərazisində yerləşən binalardan birinin blokuna daxil olub və müşahidə kamerasını oğurlayıb. Sonra onu "Laçın" ticarət mərkəzinin yaxınlığında tanımadığı şəxsə satmaq istəyib. Lakin kamera zədələndiyi və yararsız hala düşdüyü üçün müştəri almaqdan imtina edib.

Dindirilmə zamanı əməlindən boyun qaçırmağa çalışsa da təhqiqatçı, polis mayoru Pərvanə Əzizovanın tutarlı dəlil-sübutları qarşısında aciz qalan Habil oğurluğu narkotik almaq məqsədilə törətdiyini etiraf edib.

*Teymur Əlizadə*

# Təxirəsalınmaz tədbirlər nəticəsində

**Yasamal Rayon Polis İdarəsi əməkdaşları tərəfindən həyata keçirilən uğurlu əməliyyat zamanı axtarışda olan Bakı şəhər sakini Əli Musayev saxlanılıb.**



**RPİ Cinayət Axtarışı Şöbəsinin rəisi, polis mayoru Habil Hüseynovun** sözlərinə görə, Ə.Musayev ictimai yerdə keçmiş tanışı Natavan Xasayevanı döyərək ona sağlamlığın qısa müddətdə pozulmasına səbəb olan bədən xəsarəti yetirib. Zərərçəkmiş şəxsin müraciəti əsasında iş dərhal nəzarətə götürülüb və təcrübəli əməkdaşlardan - CAŞ rəisinin müavini, polis mayoru Emil Abuzərlidən və əməliyyat müvəkkili, polis baş leytenantı Fuad Məmmədovdan ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Təxirəsalınmaz əməliyyat tədbirləri, eləcə də yüksək operativlik nəticəsində asayiş keşikçiləri hadisəni törədən şəxsin yerini müəyyən ediblər.

İlkin dindirilmə zamanı o da müəyyən olunub ki, Əli tanışını tez-tez ölümlə hədələyərək ondan pul istəyib. Təqsirləndirilən şəxs barəsində qanunamüvafiq tədbir görülüb.

Yeri gəlmişkən, Yasaman RPİ CAŞ tərəfindən cari ilin doqquz ayı ərzində axtarışda olan təqsirləndirilən və itkin düşmüş şəxslərin axtarış işinin açılması 73,4 faiz təşkil edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,9 faiz çoxdur.

*Teymur Əlizadə,*
*polis mayoru*




**Baş Narkotiklərlə Mübarizə İdarəsi və Cəlilabad RPŞ** əməkdaşlarının birgə keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Edişə kənd sakini, əvvəllər məhkum olunmuş E.Quliyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun həyətyanı sahəsinə baxış zamanı oradan 504 qram heroin götürülmüşdür.

◆◆◆

Sentyabrın 24-də saat 04:00 radələrində Salyan dəmir yolu stansiyası ərazisindən 200 kiloqram çəkidə naqili oğurlamağa cəhd göstərən Salyan şəhər sakinləri S.Məmmədov və B.Quliyev "Muravey" markalı motosikletə yükləyib apararkən **Nəqliyyatda Baş Polis İdarəsinin** əməkdaşları tərəfindən saxlanılmışlar.

◆◆◆

**Suraxanı RPİ 31-ci PB** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan Bakı şəhər sakini A.Cəbiyevdən 110 qramdan artıq heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

Daxil olmuş məlumat əsasında **Siyəzən RPŞ və BDYPİ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində sentyabrın 27-də saat 23:00 radələrində BDYPİ-nin Zarat kəndi ərazisindəki postunda şəhər sakini X.Abdullayevin idarə etdiyi "Hyundai" markalı avtomobil saxlanılmışdır. Şəxsi axtarış zamanı X.Abdullayevdən və sərnişini, əvvəllər məhkum olunmuş R.Əbdülovdan heroin aşkar edilmişdir. Avtomobilə baxış zamanı isə heroin və elektron tərəzi götürülmüşdür.

◆◆◆

**Mingəçevir ŞPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən C.Mahmudov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 10 qramdan artıq marixuana aşkar edilmişdir.

Davam etdirilən tədbirlərlə onun yaşadığı mənzilə baxış zamanı oradan 435 qram marixuana götürülmüşdür.

◆◆◆

**Masallı RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən E.Abıyev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilmişdir. Davam etdirilən tədbirlərlə onun yaşadığı mənzilə baxış zamanı oradan 425 qram marixuana götürülmüşdür.

## Sentyabr ayının 24-dən 28-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 150 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 33 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 142, o cümlədən borclu şəxs qismində axtarışda olan 102 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 7 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 8 nəfər ölmüş, 4 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 84 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00
Qiyməti 40 qəpik